**Lalə Fəqail qızı Mahmudova**

**UOT: 338.242.2:330.34.014; JEL:F6;F63;O3;O31.**

# Strateji innovasiya fəaliyyətinin idarəetmə və maliyyə təminatı problemləri

***Xülasə***

*Məqalədə strateji innovasiya fəaliyyətinin idarəetmə və maliyyə təminatı problemləri tədqiq olunmuşdur. Bu məqsədlə, innovasiya fəaliyyətinin vacibliyi və müasir dövrdəki əhəmiyyəti açıqlanmışdır. İnnovasiya fəaliyyətinin strateji idarəetmə mexanizmlərinin əsaslandırılmasının vacibliyinə xüsusi diqqət yetirilmişdir. Strateji innovasiya fəaliyyətinin maliyyə təminatı problemləri araşdırılmışdır. İnnovasiya fəaliyyətinin sürətləndirilməsində və səmərəliliyinin artırılmasında maliyyə təminatının rolu əsaslandırılmışdır. İnnovatik yanaşmaların səmərəliliyinin yüksəldilməsində idarəetmə mexanizmlərinin mühüm funksiyaları açıqlanmışdır. İdarəetmə mexanizmlərinin adekvatlığı problemlərinə toxunulmuşdur və bununla bağlı sistemli tədbirlərin görülməsi diqqət mərkəzinə çatdırılmışdır. İnnovasiya fəaliyyətinin iqtisadi proseslərə təsiri məsələlərinə baxılmışdır. İnnovasiyaların işlənməsi, hazırlanması və tətbiqi proseslərində idarəetmə və maliyyə təminatı mexanizmlərinin rolu araşdırılmışdır. İnnovasiyaların iqtisadi inkişaf strategiyasının hazırlanmasında əsas mexanizmlərindən biri kimi baxılmasının vacibliyi əsaslandırılmışdır. İnnovasiya fəaliyyətinin rəqabətqabiliyyətli və ixracyönlü məhsul istehsalının artırılmasında rolu və əhəmiyyəti baxılmışdır. Strateji innovasiya fəaliyyətinin maliyyə aspektlərinin həlledici əhəmiyyəti xüsusilə qabardılmışdır. İnnovasiya fəaliyyətinin daha geniş şəkildə təmin edilməsində innovasiya-investisiya cəlbediciliyinin artırılması problemləri araşdırılmışdır. İnnovasiya fondlarının yaradılması və maliyyə resurslarının formalaşdırılması mexanizmlərinin vacibliyinə toxunulmuşdur. İqtisadiyyatın dayanıqlı inkişafında innovasiyaların rolundan çıxış etməklə, innovasiya fəaliyyətinin idarəetmə və maliyyə təminatı problemləri üzrə tövsiyələr hazırlanmış və təkliflər verilmişdir.*
***Açar sözlər**: strateji innovasiya fəaliyyəti, innovasiya fəaliyyəti, idarəetmə problemləri, maliyyə təminatı problemləri, innovasiya-investisiya cəlbediciliyi, innovasiya fəaliyyətinin maliyyələşdirilməsi*



## Giriş

Strateji innovasiya fəaliyyətinin idarəetmə və maliyyə təminatı problemləri kifayət qədər mürəkkəbliyi ilə diqqət çəkir. Bu problemlərin balanslaşdırılması və həlli yollarının tapılması çoxlu sayda məsələlərin sistemli şəkildə həllini şərtləndirir. Strateji innovasiya fəaliyyənin təmin edilməsi və fəaliyyət prosesləri ilə bağlı maliyyə vəsaitlərinin etibarlı mənbələrinin formalaşdırılması konsepsiyasının olması hər bir innovasiyayönlü fəaliyyət subyektinin başlıca vəzifələrindən biri kimi qiymətləndirir. Məlumdur ki, hər bir təsərrüfat subyekti bazarda rəqabət qabiliyyətini qoruyub saxlaya bilmək üçün müntəzəm olaraq öz təsərrüfat fəaliyyətində dəyişikliklər etməlidir. Bu dəyişikliklər müəssisələrin aid olduğu sahənin ölkədə mövcud olan qabaqcıl təcrübəsinə, dünyadakı ən yaxşı nümunələrə, elmi tədqiqatlar sahəsindəki son nailiyyətlərə uyğun ola bilər. Nəticə etibarı ilə yeniliyin tətbiqi müəssisənin inkişaf potensialını müəyyən edir və istehsal imkanlarının daha yüksək səviyyəsinə çatmağa şərait yaradır.

*©Lalə Fəqail qızı Mahmudova i.f.d.dos, Sumqayıt Dövlət Universiteti. E-mail: science.info@gmail.com*
*©AMEA İqtisadiyyat İnstitutu*
© *www.economics.com.az*

**Müasir dövrdə strateji innovasiya fəaliyyətinin idarəetmə və maliyyə təminati problemlərinin xüsusiyyətləri**

İdarəetmə və maliyyə təminatını gücləndirmək hesabına əldə olunan innovasiya yenilikləri müəssisənin fəaliyyətinə yeni potensial əlavə edir, məhsuldarlığı artırır. Yeniliklər bir tərəfdən mövcud vəziyyətin qorunub saxlanılmasına yönəlmiş bütün konservativ meyillərlə ziddiyyət təşkil edir, digər tərəfdən isə dəyişikliklər strategiyası çərçivəsində müəssisənin fəaliyyətinin texniki-iqtisadi göstəricilərinin əhəmiyyətli dərəcədə yüksəldilməsinə imkan verir. Bu amillər baxımdan müəssisələrin fəaliyyətində böyük innovasiya imkanlarına malik sahələrdən biri də onların idarəetmə sistemindən təkmilləşdirlməsindən və maliyyə təminatının gücləndirilməsindən ibarətdir. İnnovasiya fəaliyyətinin idarə edilməsinin yenidən qurulması müəssisənin yaradıcı potensialından daha dolğun istifadəsinə imkan verən təşkilati münasibətlərin formalaşdırılmasını nəzərdə tutur [13]. Bundan başqa, strateji innovasiya fəaliyyətinin idarəetmə mexanizmlərinin təkmilləşdiirlməsi üçün bir qrup məsələlər xüsusilə diqqət mərkəzində saxlanılmalıdır: rəhbərlik tərəfindən innovasiya fəaliyyətinin birmənalı dəstəklənməsi, rəhbərin tətbiq etdiyi dəyərlər sistemi müəssisədə yeniliklərin axtarışına və reallaşmasına təkan verən azad, yaradıcı innovasiya mühitinin yaradılmasına bilavasitə təsir edir; təşkilatın bütün bölmələrində və strukturlarında yenilikçiliyin dəstəklənməsi, ideyaların reallaşdırılması üçün hər cür şəraitin yaradılması, kommunikasiyaların yüksək səviyyəsi və daimi təkmilləşdirilməsi, innovasiya fəaliyyətinin maddi həvəsləndirilməsinin və sosial-psixoloji stimullaşdırmanın müxtəlif forma və metodlarının daxil olduğu kompleks motivasiya sistemlərinin tətbiq edilməsi, demokratik idarəetmə formasında idarəetmə üslubunun tətbiqi, yaxud, işçilərin innovasiya prosesinin və qərar qəbulunun bütün mərhələlərində iştirak etməsi.



Strateji innovasiya fəaliyyətinin idarəetmə və maliyyə təminatı problemlərinin həll edilməsində ali idarəetmə heyətinin, ilk növbədə rəhbərliyin rolu kifayət qədər böyükdür [14]. Rəhbərlik tərəfindən yenilikçiliyin dəstəklənməsi müəssisədə innovasiya mühitinin yaradılmasında mühüm əhəmiyyət kəsb edir. Belə ki, rəhbər-menecerin əsas məqsədi yalnız düzgün qərar qəbulundan ibarət deyil, həm də idarə etdiyi kollektivdə yaradıcı mühiti təmin etməkdən ibarətdir. Bu çox vacibdir, çünki işçilər idarəetmə prosesinə cəlb edildikdə qəbul edilmiş qərarı öz şəxsi qərarları və ya ən yaxşı qərar kimi qəbul edərək onu daha böyük həvəslə icra etməyə çalışırlar. Müəssisənin maliyyə resurslarından istifadə məsələlərində daha qənaətcil və intizamlı olurlar. Belə olduğu təqdirdə innovatik proseslərdə dinamiklik təmin edilir. Qlobal iqtisadi çağırışlar şəraitində strateji innovasiya sisteminin idarə edilməsi prinsiplərinin müəyyənləşdirilməsi, idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi, maliyyə təminatı mexanizmlərinin adekvatlığının təmin edilməsi üzrə maksimum optimal metodların və üslubların seçilməsi vacib şərtlərdəndir. Bunun üçün strateji innovasiya fəaliyyətinin idarəetmə və maliyyə təminatı ilə bağlı problemlərinin mahiyyəti nəzərə alınmalı və onların xüsusiyyətlərinin kompleks şəkildə öyrənilməsi təmin eidlməlidir. Bu problemlərin araşdırılması və maksimum əlverişli həlli yollarının müəyyənləşdirilməsi proseslərində müasir dövrün tələbləri və qlobal innovasiya çağırışları, innovasiya fəaliyyətinin strateji əhəmiyyət kəsb etməsi ciddi şəkildə diqqət mərkəzində saxlanılmalıdır.

İnnovasiyayönlü müəssisənin elmi-texniki potensialının reallaşdırılması, strateji innovasiya fəaliyyətinin təmin edilməsi üçün idarəetmə və maliyyə təminatı problemlərinin həll olunması məqsədilə bir qrup məsələlərə xüsusi önəm verilməli və onlar diqqət mərkəzində saxlanılmalıdır:

- İnnovasiya fəaliyyətinin plan və proqramlarının strateji səviyyədə işlənib hazırlanması; Yeni innovasiya məhsulun hazırlanması və tətbiqinin gedişinə nəzarət sisteminin formalaşdırılması;

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

- Yeni məhsulların yaradılması layihələrinin tədqiqi və əsaslandırılması;
- Vahid innovasiya siyasətinin həyata keçirilməsi və bu sahədə müəssisə strukturlarının, ayrı-ayrı bölmələrinin fəaliyyətlərinin koordinasiyası;
- Yenilikçi proqramların maddi və maliyyə təminatının güclü şəkildə təmin edilməsi;
- Yenilikçi fəaliyyətin yüksək ixtisaslı heyətlə təminatı və innovasiya problemləri üzrə peşəkar mütəxəssislərin hazırlanması;
- Strateji innovasiya fəaliyyəti üzrə problemlərin kompleks həlli üçün müvəqqəti məqsədli heyətin - qrupların yaradılması.

Bu amillərə və yanaşmalara kompleks şəkildə diqqət yetirilməsi vacib şərtlərdəndir. Belə ki, strateji innovasiya fəaliyyətinin mövcud mexanizmlərinin yeniləşmə prosessi bazar münasibətləri və analoji bazarlarda bazar konyunkturası ilə bilavasitə əlaqədardır. İnnovasiyaların mütləq çoxluğu bazar iqtisadiyyatı şəraitində istehsal, kommersiya məsələlərinin həlli üsulu, fəaliyyətlərinin sabitliyinin, rəqabətqabiliyyətinin, iqtisadi artımının mühüm amili kimi sahibkarlıq strukturları tərəfindən reallaşdırılır. Bu halda, innovasiya, bazara konkret istehlakçıya və ya konkret tələbata yönəlir, yeni innovasiyaların tətbiqi sayəsində istehsal və fəaliyyət proseslərinə yeni nəfəs gətirilir, yeni məhsulların istehsalı, ümumilkdə istehsalın strukturunun təkmilləşdirilməsi təmin olunur [8]. Yeniliklərin idarə edilməsi hər bir müəssisənin ayrı-ayrı bölmələri arasında çoxsaylı və spesifik məsələlərin həllinə yönəlmiş və geniş spektrli konkret tədbirlərin reallaşmasını tələb edən müxtəlif funksiyaların (marketinq, planlaşdırma, təşkiletmə, nəzarət) uyğunlaşmasıdır. Hər bir mərhələdə əməyin təşkilinin, idarə edilməsinin, maliyyələşdirilməsi, kadr təminatının spesifik metodları tətbiq edilir. Lakin uğurlu fəaliyyəti təmin etmək üçün müəssisə rəhbərliyindən ayrı-ayrı həlqələrin bir zəncirə birləşdirilməsi, yəni strateji innovasiya fəaliyyəti üzrə idarəetmə sisteminin təkmilləşdirilməsi, maliyyə təminatının gücləndirilməsi vacib şərtlərdəndir [7]. Strateji innovasiya fəaliyyətinin idarəetmə və maliyyə təminatı problemlərinin həlli üzrə mütərəqqi dünya təcrübəsindən yanaşsaq, innovasiyaların vahid idarəetmə sisteminin işlənib hazırlanması və maliyyə təminatı mexanizmlərinin formalaşdırılması həlledici amillər kimi diqqət çəkir. İnnovasiyayönlü müəssisələrdə texnoloji inkişafın istiqamətlərinin ümumi strateji planlarla uyğunluğu, müəssisənin strateji innovasiya fəaliyyəti ilə sisyasətinin tərkib elementləri ciddi şəkildə əsaslandırılmalıdır.

**Strateji innovasiya fəaliyyətinin idarəetmə və maliyyə təminati problemlərinin həlli yolları**

Strateji innovasiya sisteminin formalaşdırılması və inkişaf etdirilməsi potensialından səmərəli istifadə olunması vacib şərtlərdəndir. Belə ki, idarəetmə proseslərində yenilikəlrin idarə edilməsinin innovasiya sisteminin təhlilini bir tərəfdən innovasiya strategiyasının tipi, digər tərəfdən isə müəssisənin strukturu, texnologiyası, heyəti və digər parametrləri ilə sıx əlaqədə aparmaq daha çox səmərə verə bilər [10]. Müasir dövrdə iqtisadiyyatda baş verən əsaslı dəyişikliklər bütün fəaliyyət sahələrini, o cümlədən, elmi-texniki siyasəti də əhatə etməkdədir. Elmi-texniki nailiyyətlərdən səmərəli istifadə problemi bazar islahatları şəraitində öz aktuallığını itirmir, əksinə daha da kəskinləşir, çünki yuxarıda qeyd etdiyimiz kimi, kəskin rəqabət şəraitində, məhz innovasiya fəaliyyəti uğuru və müvəffəqiyyəti təmin edir. Bu səbəbdən bazar subyektləri cari və perspektiv rəqabətqabiliyyətlərini təmin etmək üçün müstəqil və məqsədyönlü şəktldə öz elmi-texniki siyasətlərini formalaşdırmağı və reallaşdırmağı bacarmalıdırlar. Bunlarla bağlı məsələlərin həyata keçirilməsində isə strateji innovasiya sisteminin inkişaf etdirilməsinə, bu proseslərdə innovasiya fəaliyyətinin idarəetmə və maliyyə təminatı problemlərinin sistemli şəkildə həllinə üstünlük verilməlidir. Digər tərəfdən, innovasiyayönlü müəssisənin bazarda davranış strategiyası hücum və ya müdafiə xarakterli ola bilər. Yəni müəssisə adətən, özünün, balanslaşdırılmış risklə xarakterizə edilən



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

innovasiya strategiyasını formalaşdırır və bu strategiyada bazar davranışları həm hücum, həm də müdafiə, yəni bazarda öz yerini qoruyub saxlamaq mexanizmləri formasında yer alırlar [9]. Hücum xarakterli strateji innovasiya bazar siyasəti müəyyən bazar seqmentində və satış sahəsində innovasiyalar baxımından aparıcı müəssisəyə çevrilmək potensialını göstərir. Bu halda, istər yeni, istərsə də işlənmiş təsərrüfat fəaliyyəti sahələrində yeniliklərin fəal axtarışına və işlənib hazırlanmasına yönəlmiş hücum strategiyasının qəbul edilməsi müəssisənin təşkilati strukturunda əsaslı dəyişiklikləri tələb edir. Yeniliklər yüksək risk şəraitində fəaliyyət göstərirlər və bu şəraitdə qabaqlayıcı xarakter daşıyan yeniliklərin uğurlu reallaşdırılması halda "iqtisadi dayanıqlılığının" əsası olan, yeni rəqabətqabiliyyətli innovasiya məhsullarının portfeli formalaşır. Buradan belə nəticəyə gəlmək mümkündür ki, fəaliyyət sahəsinin düzgün seçimi yeni məhsulun satışının strateji planlaşdırılmasına və məhdud sahədə innovasiyaların reallaşdırılmasına yönələn xərclərin azalmasına imkan verir, maliyyə təminatı mexanizmlərini gücləndirir, idarəetmə və maliyyə təminatı problemlərinin həllinə əlavə stimullar verir.

Strateji innovasiya fəaliyyətinin idarəetmə mexanizmlərinin formalaşdırılması zamanı innovasiya fəaliyyətinin intensivləşdirilməsi strategiyasında bir qrup yanaşmaların yer alması vacib şərtlərdəndir və bunlara aiddirlər:

- Xərclərə görə üstünlüklərin əldə edilməsi - bu halda müəssisənin siyasəti daha ucuz məhsul istehsalı və satışı hesabına rəqabət üstünlüklərinin əldə edilməsindən ibarətdir. Belə ki, daha ucuz texnologiyaların tətbiqi, daha ucuz məhsulların yaradılması, bahalı xidmətlərdən imtina buna nümunə ola bilər. Bu strategiya çərçivəsində müəssisə geniş bazara istiqamətlənir və böyük həcmdə məhsul istehsal edir. Kütləvi istehsal xərclərini minimuma endirməyə, aşağı qiymətləri müəyyənləşdirməyə, bu da nəticədə rəqiblərlə müqayisədə daha yüksək gəlir əldə etməyə, qiymətlərin səviyyəsinə istiqamətlənən istehlakçıları cəlb etməyə imkan verir. Baxılan strategiya müvəqqəti olaraq istehlakçıların sayının azaldılmasına və qiymət rəqabətinin kəskinləşməsinə səbəb olduğundan kifayət qədər maliyyə ehtiyatlarına malik olmayan müəssisələr üçün riskli hesab olunur və innovasiyayönlü müəssisənin maliyyə təminatı problemlərini artıra bilər.
- Konkret innovasiya bazarı seqmentinə yönəlmiş strategiya - bu halda bir neçə aparıcı əmtəələrə diqqətin yönəldilməsi yolu ilə, istehsal xərclərini tənzimləməklə və rəqiblərin xidmət göstərə bilmədikləri bazar seqmentlərini təmin etməklə, xüsusi reputasiyanın qazanılması sayəsində müəssisə aşağı qiymətlər və ya unikal təklif hesabına bazarın spesifik seqmentini müəyyənləşdirir.
- Yeni innovasiya bazarlarına istiqamətlənmə - bu halda, yeni innovasiya məhsullarının işlənib hazırlanması və yeni zamanda, yeni bazarların mənimsənilməsini nəzərdə tutur. Belə olduğu təqdirdə, bu strategiya ən bahalı və riskli strategiyadır, lakin yalnız bu strategiya qeyri-sabit ətraf mühit şəraitində müəssisənin dayanaqlı inkişafını tam təmin edə bilər. Diversifikasiya müəssisənin istənilən imkandan yararlanmaq istəyi kimi qəbul edilməməlidir. Müəssisə rəqabət imkanlarından daha səmərəli istifadə edə biləcəyi fəaliyyət sahəsini seçməyə çalışır. Bu strategiya iri müəssisələr arasında geniş yayılmışdır. Bir sıra innovasiya məhsullarının bir neçə bazarda vəziyyətini öyrənməklə, müəssisə bir neçə məhsuldan və ya bir çeşid qrupundan asılılığını azaltmış olur.

Strateji innovasiya fəaliyyətinin idarəetmə və maliyyə təminatı problemlərinin uğurlu həlli üçün güclü innovasiya strukturu yaradılmalıdır və bu halda, innovasiya strukturu bir sıra tələblərə cavab verməlidir:

- Yeni ideyaların daimi yaranmasını dəstəkləməlidir;



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

- Yeniliklər fəaliyyət göstərən təşkilati qaydalara və prosedurlara daxil olmalarına təkan verməlidir və yeni ideyaları gündəlik cari işin tərkib hissəsinə daxil etməklə, onları tətbiq etmək imkanına malik olmalıdır.

Bir çox müəssisələr tərəfindən innovasiya strukturlarının layihə prinsipi əsasında qurulmasından geniş istifadəsi bu strukturların yaradılması prosesini əks etdirir. Bu prinsipin mahiyyəti təşkilatın malik olduğu maddi, maliyyə, insan ehtiyatlarının bir hissəsinin konkret məsələlərin həllinə yönəlmiş layihə qrupları çərçivəsində birləşməsindən ibarətdir. Layihə qrupuna böyük təşkilati – idarəetmə müstəqilliyi verilir. Müəssisə rəhbərliyi qarşıya qoyulan məsələnin həlli müddətini, maddi ehtiyatların həcmini, maliyyə vəsaitlərinin limitini müəyyənləşdirir, lakin qrupun cari işinə müdaxilə etmir. Təşkilati-layihə qrupu müəssisənin müstəqil bölməsi, yəni törəmə müəssisəsi kimi yaradıla və ya hər hansı bir bölmənin tərkibində fəaliyyət göstərə bilər [11]. Bu tip təşkilati - layihə innovasiya qrupları yeni texnologiyaların və sahibkarlıq fəaliyyətinin inkişaf meyillərini təhlil edirlər və onların fəaliyyətindən müəssisənin strategiyasını, maliyyə imkanlarını, istehlakçıların tələbatını, rəqiblərin təzyiqini, layihənin texniki reallaşdırma imkanlarını nəzərə almaqla ən perspektivli layihələrin daxili qiymətləndirilməsini və seçimini həyata keçirirlər.

Praktiki innovasiya proseslərində layihə qruplarının modifikasiyaları arasında “biznesin yeni sferalarının inkişafı mərkəzləri” geniş yayılmışdır. Onların ölçüləri və srtukturları müəssisələrin təsərrüfat fəaliyyətlərinin xüsusiyyətlərinə və ölçülərinə uyğun müəyyənləşdirilir. Qeyd edək ki, innovasiyaların yayılması, işlənməsi və istehsal proseslərinə tətbiqinin təmin olunması kifayət qədər maliyyə tutumlu məsələlərdir. Ölkəmizdə innovasiya bazarları yaradılmamış və onların tələbatının ödənilməsi təmin edilməmişdir. İnnovasiyanın kommersiallaşdırılmasının və innovasiyanın tətbiqindən alınan mənfəətin kapitallaşdırılmasını həyata keçirən təşkilatlar şəbəkəsi innovasiya fondları yaradılmamışdır [6]. Müəssisələr səviyyəsində innovasiyalar əsaslı istehsal sahələrinin yaradılması və innovasiya məhsullarının alınması potensialı xeyli zəifdir. Ölkədə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin cəmisi bir neçə faizində innovatik yanaşmalar mövcuddur və innovatik məhsullar alırlar. Təhlillər göstərir ki, bunun əsasında innovasiya proseslərinin maliyyələşdirmə mexanizmlərinin zəifliyi və ya ümumiyyətlə bu mexanizmlərin olmamasıdır [3]. Sahibkarlıq subyektlərinin dayanıqlı inkişafı və onların innovatik inkişaf mexanizmlərinin gücləndirilməsi üçün maliyyə mənbələrinin diversifikasiyalaşdırılması və onların etibarlılığının artırılması tədbirləri görülməlidir. Bunun üçün maliyyə-kredit mexanizmləri təkmilləşdirilməli və daha da asanlaşdırılmalıdır. Xüsusilə, regionlarda innovasiyayönlü sahibkarlıq subyektlərinin inkişafı üçün maliyyə resursları əlçatanlığı aşağı səviyyədədir, yalnız məhdud şəkildə nisbətən aşağı faizli kreditlərinin ayrılması mexanizmləri vardır. Amma, bu mexanizmlər çox az sayda sahibkarlıq subyektləri üçün əlçatandır. Əksər müəssisələrin davamlı şəkildə əlçatan kredit resurslarına ehtiyacı olsa da, bunları reallaşdırmaq mənbələri xeyli azdır və belə bir şəraitdə innovasiya məhsullarının istehsalının təşkil edilməsi perspektivləri, şübhəsiz zəif olaraq qalacaqdır. Buna görə də, regionlarda innovasiya sisteminin təşkili və idarəedilməsi tədbirləri çərçivəsində bu proseslərin maliyyə təminatı mexanizmlərinə ciddi önəm verilməlidir [4]. Burada müəyyən güzəştlərinin tətbiqi ilə bərabər, digər tənzimləyici mexanizmlərin, o cümlədən vergi mexanizmlərinin tətbiqi, vergitutma amillərindən məqsədli istifadə olunması müəyyən səmərə verə bilər [5]. İnnovasiya proseslərinin idarə mexanizmlərinin təkmilləşdirilməsi və onların tətbiqi məsələlərində strateji yanaşmalara üstünlük verilməlidir. İnnovasiyaların inkişafı iqtisadiyyatın müxtəlif sahələrinin modernləşdirilməsində və yüksək texnologiyaların tətbiqində daha böyük səmərə verə bilər. sahibkarlıq subyektlərində innovasiyaların çevik və



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

iqtisadi transformasiyalara uyğun şəkildə tətbiq olunması isə daha çox diqqət çəkəndir, amma bu proseslərin maliyyə təminatının işləkliyi diqqətdə saxlanılmalıdır [2].

**Nəticə**

Ölkəmizdə innovasiya proseslərinin mərkəzi idarəetmə sisteminin təşkili başa çatdırılmaqdadır və hesab edirik ki, strateji innovasiya fəaliyyətinin idarəetmə və maliyyə təminatı problemlərinin həlli üçün daha geniş perspektivlər açılacaqdır. İqtisadiyyatın müxtəlif sahələrində innovasiyaların yayılması, işlənməsi və tətbiqi proseslərini sürətləndirmklə bərabər, innovatik inkişaf mexanizmlərinin təşkilii proseslərinin maliyyə təminatının gücləndirilməsi imkanları artacaqdır və bunun üçün bir qrup məsələlərə strateji yanaşmaların təmin edilməsi vacibdir: ölkədə innovatik inkişaf proseslərinin təşkili və sürətləndirilməsi mexanizmlərinin dünya təcrübəsinə uyğun şəkildə təkmilləşdirilməsi və yenilənməsi təmin edilməlidir; müəssisələrin innovatik inkişafının maliyyə təminatının gücləndirilməsi istiqamətində işlək və səmərəli mexanizmlərin hazırlanaraq tətbiq edilməsi tədbirləri görülməlidir; müəssisələrin innovatik inkişafının sürətləndirlməsi üçün onların sərfəli maliyyə-kredit resurslarına əlçatanlığı təmin olunmalı və bu proseslərin şəffaflığı, işləkliyi, praktiki baxımdan səmərəliliyinə xüsusi fikir verilməlidir.

**Ədəbiyyat**


1. Abdullayeva Ş.H. Innovasiyaların idarə edilməsinin təkmilləşdirilməsi problemləri. İ.ü.f.d. Avtoreferatı. Bakı , 2013.
2. Bədəlova S.A. İnnovasiya iqtisadiyyatına keçid şəraitində real sektorun inkişafı məsələləri. İ.ü.f.d. Avtoreferatı. Bakı, 2016..
3. Əliyev Ş.T. Azərbaycan iqtisadiyyatı. Sumqayıt, 2018.
4. Əliyev T.N., Babayev L.V. Regional innovasiya sisteminin təşkili və idarə edilməsi. AMEA EİM. Bakı: Elm və təhsil, 2013.
5. Gülməmmədov V. Azərbaycanda kiçik və orta sahibkarlığın tənzimlənməsində vergitutma amilləri. “Vergi” jurnalı, 2014, №3.
6. Tağıyev A.H. İnnovasiya (nəzəri və tətbiqi səpkidə). Bakı, “Təknur”, 2018.
7. Алексеева Г.М. О роли малого и среднего предпринимательства в инновационной экономике. Журнал Грамота, №10(88), 2014.
8. Варламов С.А. Стратегические инновации как элемент ключевых факторов успеха организации . Экономические науки, №1(110), 2014. 69-72 с.
9. Попова. В.П. Управление инновационными проектами. М.: ИНФРА, 2007.
10. Солахов П.А. Стратегические приоритеты инновационного развития России в условиях интеграции в систему мирохозяйственных связей. Дисс. канд. экон. наук. Краснодар, 2011.
11. Чекшин В.И. Экономическая оценка инвестиций. Электросталь: ЭПИ МИСИС, 2005.
12. Carvalho N., Carvalho L., Nunes S.A Methodology to Measure Innovation in European Union through the National Innovation System. International Journal of Innovation and Regional Development. 2015. Vol. 6. № 2. P. 159–180.
13. Gerguri Sh., Rexhepi G., Ramadani V. Innovation strategies and competitive advantage. Современная экономика: проблемы, тенденции, перспективы. 2013. Вып. 8 (1). С. 10-26.
14. Koshcheev S.V., Lopatina N.V., Levchenko K.K. Territorial units’ innovative attractiveness monitoring. European journal of economic studies. 2013, №2, С. 90-96.




© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

***Лала Фагаил кызы Махмудова***

***Проблемы управления и финансового обеспечения стратегически инновационной деятельности***

***Резюме***

*В статье исследованы проблемы управления и финансового обеспечения стратегически инновационной деятельности. С этой целью раскрыты сущность и важность инновационной деятельности в нынешнем периоде. Обоснована роль финансового обеспечения в ускорении и повышении эффективности инновационной деятельности. Особо обращено внимание на важность управленческого механизма инновационной деятельности. Исследованы проблемы финансового обеспечения стратегической инновационной деятельности. Раскрыты важные функции управленческих механизмов в повышении эффективности инноватических подходов. Рассмотрено и обращено внимание на необходимость применения действенных мер по проблемам адекватности управленческих механизмов. Рассмотрены роль и важность инновационной деятельности по повышению роста производства и конкурентоспособности экспортоориентированных продукций. Особенно подчеркнута важность ключевых аспектов финансового обеспечения стратегически инновационной деятельности. Исследованы проблемы по повышению инновационно-инвестиционной привлекательности инновационной деятельности. Коснулись важности создания и формирования механизмов инновационных фондов и источников финансовых ресурсов. Подготовлены рекомендации и даны предложения по проблемам управления и финансового обеспечения инновационной деятельности в контексте повышения роли инноваций в развитии устойчивости экономики.*

***Ключевые слова:*** *стратегически инновационная деятельность, инновационная деятельность, проблемы управления, проблемы финансового обеспечения, инновационно-инвестиционная привлекательность, финансирования инновационной деятельности*



***Lala Fagail Makhmudova***

***Problems of management and financial support strategically innovative activities***

***Resume***

*The problems of management and financial support of strategic innovation are examined in the article. To this end, the essence and importance of innovation in the current period is revealed. The role of financial support in accelerating and increasing the efficiency of innovation activity is substantiated. Special attention to the importance of the managerial mechanism of innovation is paid. The problems of financial support of strategic innovation activity are investigated. The important functions of management mechanisms to improve the effectiveness of innovative approaches is revealed. The role of mechanisms of financial support for the development, preparation and application of innovation processes is investigated. The role and importance of innovation in raising production growth and competitiveness of export-oriented products are considered. The importance of key aspects of financial support for strategic innovation is especially emphasized. The problems of increasing the innovation and investment attractiveness of innovation are researched. The importance of creating and forming mechanisms for innovation funds and sources of financial resources is touched. Recommendations and proposals on the problems of management and financial support of innovation activities in the context of enhancing the role of innovations in the development of economic sustainability are prepared and given.*

***Keywords:*** *strategically innovation activity, innovation activity, management problems, problems of financial support, innovation and investment attractiveness, financing of innovation*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub:20.05.2019.***
***Çapa qəbul olunub:23.05.2019.***

*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*